# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ ARIÇILIĞIN İNKİŞAF ETDİRİLMƏSİNİN ƏHƏMİYYƏTİ

**Vüsalə Əliyeva**

*AR KTN Bitki Mühafizə və Texniki Bitkilər Elmi Tədqiqat İnstitutu, Gəncə*
*vusale25@inbox.ru*

Azərbaycan dövlətinin müstəqilliyinin qorunub saxlanılması, ölkə daxilində ictimai-siyasi sabitliyin yaradılması, ölkəmizin beynəlxalq aləmdə layiqli yer tutması, əhalinin sosial-iqtisadi, elmi-mədəni inkişafı kimi digər yüzlərlə tarixi əhəmiyyətli proseslər müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən rəhbərliyə gəlməsi nəticəsində respublikanın iqtisadiyyatında illər boyu davam etmiş geriliyə son qoyuldu, bütün sahələrdə olduğu kimi aqrar sahənin inkişafında da yeni dönüş mərhələsi başlandı, kənd təsərrüfatı istehsalının əsaslı yüksəlişi təmin edildi. Kənd təsərrüfatına məqsədli vəsait qoymadan yüksək nəticələr əldə etməyin mümkün olmadığını aydın zəkası ilə çox gözəl bilən Ulu Öndərin qərarları ilə bu istiqamətdə ardıcıllıqla əsaslı tədbirlər həyata keçirilməyə başlandı.

Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq ərazi iddiaları ilə çıxış edərək ölkəmizə qarşı hərbi təcavüz etməsi, zorakılıqdan istifadə edərək torpaqlarımızın 20 faizini işğal etməsi nəticəsində 1 milyondan çox azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşməli oldu. Ətraf Mühit və İnkişaf üzrə Rio-de-Janeyro Bəyannaməsinə görə, müharibələr davamlı inkişaf prosesinə dağıdıcı təsir göstərməməlidir. Ermənilər işğal etdikləri ərazilərimizdə ekoloji terror törətmiş, bunun nəticəsində kənd təsərrüfatına, əkin sahələrinə ciddi ziyan dəymiş, yaşıllıqların çox hissəsi məhv olmuşdur. Torpağın bioloji strukturunda mənfi proseslər baş vermiş və ciddi ekoloji problemlər yaranmışdır.

Ulu Öndər Heydər Əliyevin başlatdığı demokratik dövlət quruculuğu və iqtisadi inkişaf siyasəti respublikamızın Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir**.** 2020-ci ildə Ali Baş Komandanın təşəbbüsü və rəhbərliyi ilə Müzəffər Ordumuzun işğal olunmuş ərazilərimizi erməni separatçılarından azad etməsi bunun bariz sübutudur. Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi və Qarabağda bütün həyat, iqtisadiyyat və xidmət sahələrinin bərpasını və inkişafını özündə əks etdirən uzunmüddətli strateji dövlət proqramları hazırlanaraq qəbul edilmişdir. Qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan aqrar sektorda infrastrukturun yenilənməsi, müasir tipli yeni müəssisələrin yaradılması, əhalinin məşğulluğunun artırılmasına, yoxsulluğun səviyyəsinin azaldılmasına, yeni iş yerlərinin açılmasına şərait yaradır.

Qarabağa qayıdışın əsas amillərindən biri də kənd təsərrüfatının bərpasıdır. İşğaldan azad edilmiş rayonlarımızda heyvandarlığın və əkinçiliyin intensiv inkişafına xüsusi diqqət yetirilir ki, bu da ərzaq proqramının uğurla həyata keçirilməsinə zəmin yaradır. Bu məqsədlə heyvandarlıqda təbii yem bazasının möhkəmləndirilməsi, dənli bitkilərin, əkin sahələrinin, çoxillik ot bitkilərinin və tərəvəzçiliyin genişləndirilməsi nəzərdə tutulur. Qarşıya qoyulan məqsədin reallaşmasında arıçılıq böyük rol oynayır. Arıların kənd təsərrüfatı bitkilərinin tozlanmasında xüsusi rolu var ki, bu da məhsuldarlığın artmasına səbəb olur, bitkilərin toxum və meyvələrinin keyfiyyətini yaxşılaşdırır. Bal arıları bol qida ehtiyatı toplamaq üçün çiçəklər üzərində ardıcıl və həvəslə işləyirlər. Bir güclü arı ailəsi gündə 40-60 milyon çiçək tozlandıra bilir. Yazda qış yuxusundan çıxan arılar digər həşəratlara nisbətən daha tez açan çiçəkləri tozlandırırlar. Müəyyən edilmişdir ki, günəbaxan, qarabaşaq, pambıq və digər entomofil bitkilər arılar tərəfindən tozlandıqda onların məhsuldarlığı 20-30%, meyvə və giləmeyvələrin tozlanması nəticəsində isə 30-40% hətta 50%-ə qədər arta bilər.

Arıçılıq ətraf mühitin ekoloji vəziyyətini yaxşılaşdırmaqla yanaşı, iqtisadi cəhətdən yüksək gəlirli fəaliyyət sahəsi, əhalinin sağlamlığını qoruyan mühüm qida və müalicə məhsulları mənbəyidir. Baldan başqa, arılar arı polen, propolis, arı çörəyi, arı südü və arı mumu da daxil olmaqla bir çox məhsul istehsal edə bilirlər. Arıçılıq məhsulları yeyinti sənayesində, kosmetika və parfümeriya məmulatlarının istehsalında, tibb və farmakologiyada geniş istifadə olunur və ondan müxtəlif maddələr hazırlanır. "Arıçılıq haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edildiyi dövrdən sonrakı illərdə bal istehsalı 4,1 dəfə, arı ailələrinin sayı 3,8 dəfə, arıçılıqla məşğul olan təsərrüfatların hər birinə orta hesabla düşən arı ailələrinin sayı isə 11,1-dən 17,5-dək artmışdır.

Qarabağ regionunda arıçılıq sahəsinin inkişafı dövlətin aqrar siyasətinin əsas istiqamətlərinə daxildir. Arıçılığın inkişafı kənd yerlərində məşğulluğun təmin edilməsi və əhalinin gəlirlərinin artması baxımından mühüm əhəmiyyət kəsb edir. İşğaldan azad olunmuş rayonlar arıçılığın inkişafı üçün böyük potensiala malikdir, belə ki, bölgənin bitki örtüyü ehtiyatları arıçılığın inkişafı baxımından çox əlverişlidir. Qarabağda da arı ailələrinin sayını artırmaqla, məhsuldarlığı yüksəltmək və bölgədə bal istehsalını bir neçə dəfə artırmaq, böyük təsərrüfatlar yaratmaq və gəlir əldə etmək mümkündür.

Mütəxəssislər Qarabağa 300 minə qədər arı ailəsinin köçürülməsini mümkün hesab edirlər. Burada arıçılığın inkişafı üçün ekstensiv yolla arı ailələrinin sayını çoxaltmaq, intensiv yolla arı ailələrinin məhsuldarlığını artırmaq və arıçılığın yem bazasını gücləndirmək üçün xüsusi nektarlı bitkilərin əkilməsi tələb olunur. Qarabağda müasir arıçılıq təsərrüfatlarının yaradılması, yerləşdirilməsi, idarə olunması və onların sənaye əsasında təşkil edilməsi öz doğma yurd-yuvalarına dönən əhalinin maddi rifahının yüksəlməsi üçün çox vacibdir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransdakı nitqində dövlətimizin başçısı cənab İlham Əliyev Azərbaycanda arıçılığın tədricən inkişaf etdiyini, sahibkarların bu sahəyə diqqət artırmasının vacibliyini qeyd etmişdir. Bütün sahələrdə olduğu kimi, arıçılıq sahəsində də aparılan məqsədyönlü islahatlar nəticəsində Qarabağ bölgəsinə "Böyük Qayıdış"dan sonra arıçılığın inkişafı ilə geniş sosial-iqtisadi imkanlar yaradılır ki, bu da kənd əhalisinin gəlirlərinin artmasına, məşğulluğunun təmin olunmasına xidmət edəcəkdir. Arıçılıq isə işğaldan azad olunmuş ərazilərimizdə biomüxtəlifliyin qorunmasına əvəzsiz töhfə verəcəkdir.